**Avropa İnsan Hüquqları Məhkəməsi**

**Üçüncü Bölmə**

**Trufanov və Digərləri Rusiyaya qarşı**

**(Müraciət No. 18130/04)**

# QƏRAR

**Strasburq**

**10 yanvar 2017-ci il**

**Bu qərar qətidir, lakin redaktə oluna bilər.**

**Avropa Şurası**

**TRUFANOV VƏ DİGƏRLƏRİ RUSİYAYA QARŞI QƏRARI**

**Trufanov və Digərləri Rusiyaya qarşı işində,**

Avropa İnsan Hüquqları Məhkəməsi

Sədr Branko Lubardo

Hakimlər, Pere Pastor Vilanova

Georgios A. Serghides

Və Bölmə Qeydiyyatçısının Müavini Fatoş Aracıdan ibarət olan Komitə

06 dekabr 2016-cı ildə qapalı iclasda baxaraq aşağıdakı qərarı qəbul etmişdir:

**PROSEDUR:**

1. İş 13 aprel 2004-cü ildə, üç Rusiya vətəndaşları - İvan Eduardoviç Trufanov, Georgi Yuriyeviç Sedov və Sergey Vitaliyeviç Posoxov (ərizəçilər) tərəfindən Rusiya Federasiyasına qarşı İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyanın (“Konvensiya”) 34-cü maddəsinə əsasən Avropa Məhkəməsinə verilmiş şikayətlə (№ 18130/04) əlaqədar açılmışdır.
2. Ərizəçilər Taqanroqda fəaliyyət göstərən hüquqsünaslar A.V.Kiryanov və E.V.Kiriyanova tərəfindən təmsil olunmuşlar. Rusiya Hökuməti (“Hökumət”) Rusiya Federasiyasının Avropa İnsan Hüquqları Məhkəməsindəki Nümayəndəsi Q.Matyuşkin tərəfindən təmsil olunmuşdur.
3. Ərizəçilər ondan şikayət etmişlər ki, milli məhkəmələrin onlara qarşı qeyri-qanuni olduğu güman edilən cinayət təqibi ilə bağlı kompensasiya verməkdən imtina etmələri Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndi ilə nəzərdə tutulan təqsirsizlik prezumpsiyasının prinsiplərini və Konvensiyanın 7 saylı Protokolunun 3-cü maddəsi ilə nəzərdə tutulan, yanlış məhkumluğa görə onların kompensasiya almaq hüququnu pozur.
4. 06 sentyabr 2008-ci ildə müraciət Rusiya Federasiyasının Hökumətinə bildirilmişdir.

**FAKTLAR**

**İŞİN HALLARI**

5. Ərizəçilər müvafiq olaraq 1961, 1963 və 1966-cı illərdə anadan olmuş və Taqanroq şəhərində yaşayırlar.

**A. Cinayət prosesi**

**6.** 02 iyul 2001-ci ildə Rostov vilayətinin Neklinovskiy Rayon Məhkəməsi Ərizəçiləri müxtəlif əməllərə görə təqsirli bilmiş, lakin qərara almışdır ki, onlar cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyinə görə müvafiq cəza çəkməməlidirlər. 02 oktyabr 2001-ci ildə Rostov Vilayəti Məhkəməsi hökmü dəyişdirilmədən saxlamışdır.

**7.** 31 yanvar 2002-ci ildə Rostov Vilayət Məhkəməsinin Rəyasət Heyəti 02 iyul və 02 oktyabr 2001-ci il tarixli qərarları nəzarət qaydasında ləğv etmiş və Ərizəçilərin barəsində cinayət işinin icraatına xitam vermişdir. Rəyasət Heyəti müəyyən etmişdir ki, cəlb etmə müddəti keçdiyinə görə məhkəmələrin Ərizəçilərin təqsiri barədə məsələni həll etmək hüququ olmamışdır.

**B. Kompensasiya prosesi**

**8.** Ərizəçilər onların məhkumluğu ilə bağlı mənəvi zərərə görə kompensasiya tələbi ilə Rusiya Federasiyasının Maliyyə Nazirliyinə qarşı iddia vermişlər.

**9.** Rostov Vilayətinin Taqanroq Şəhər Məhkəməsi 01 mart 2005-ci il qərarı ilə onların iddialarını rədd etmişdir. Bunu aşağıdakı kimi əsaslandırmışdır:
"...Məhkəmə hesab edir ki, Ərizəçilərin yuxarıda qeyd edilən cinayətlərin törədilməsində təqsirləri müəyyən edildiyinə görə qətimkan tədbirinin seçilməsi əsaslı olmuşdur. Odur ki, məhkəmə Ərizəçilərin qanunsuz həbsə alınmaları və onlardan başqa yerə getməmək iltizamının alınması ilə bağlı mənəvi ziyana görə kompensasiya tələblərinin təmin edilməsi üçün əsas görmür...".

**10.** 11 may 2005-ci ildə Rostov Vilayət Məhkəməsi 01 mart 2005-ci ilin qərarını dəyişdirilmədən saxlamışdır. Məhkəmə qərara almışdır ki, "...birinci instansiya məhkəməsi Ərizəçilərin mənəvi zərərin kompensasiyası tələblərinin rədd edilməsinə dair qətnamədə haqlı olaraq

müəyyən etmişdir ki, Rostov Vilayət Məhkəməsinin Rəyasət Heyətinin 31 yanvar 2002-ci il tarixli qərarı ilə onların cinayət məsuliyyətindən azad edilmələri bəraətverici əsaslarla olmamışdır. Məhkəmənin qənaətinə görə müraciət edənlərin yuxarıda qeyd edilən cinayətləri törədilməsində təqsirləri müəyyən edilmiş, tədqiqat zamanı qətimkan tədbirinin tətbiq edilməsi əsaslı olmuşdur. Məhkəmənin gəldiyi nəticə düzgündür, işin hallarının hərtərəfli yoxlanması və  müvafiq qiymətləndirilməsinə əsaslanır...”

**HÜQUQ**

## I. İLKİN İZAHLAR

**11.** Ərizəçilər izahlarda onların qanunsuz həbsdə saxlanmaları və ikinci Ərizəçilərin əmlakının sübut kimi götürülməsi ilə bağlı əlavə şikayətlər vermişlər. Bu dəlillərin müvafiq Hökumətə bildirilən şikayətlərdən kənara çıxdığı üçün Avropa Məhkəməsi onları nəzərə almayacaqdır (baxın, mutatis mutandis, Pavlenko Rusiyaya qarşı, №42371/02, §94, 01 aprel 2010-cu il və Antonyuk Rusiyaya qarşı, №47721/10, §§ 93-94, 01 avqust 2013-cü il).

## II. KONVENSİYANIN 6-CI MADDƏSİNİN 2-Cİ BƏNDİNİN İDDİA EDİLƏN POZUNTU

**12.** Ərizəçilər şikayət etmişlər ki, Rusiya Federasiyasının məhkəmələrinin iddia edilən qanunsuz cinayət təqibinə görə onlara kompensasiya verməkdən imtina etmələri təqsirsizlik prezumpsiyasının prinsiplərini pozmuşdur. Ərizəçilər Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndinə

əsaslanmış, həmin bənddə göstərilmişdir ki, "Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə, təqsirsiz sayılır."

**A. Şikayətin mümkünlüyü**

**13.** Məhkəmə hesab edir ki, bu şikayət Konvensiyanın 35-ci maddəsinin 3(a) bəndinin mənası baxımından açıq-aydın əsassız deyildir. Bundan əlavə o, qeyd edir ki, bu hər hansı bir digər əsasla da yolverilməz deyil. Ona görə də, şikayətlərin mahiyyəti üzrə baxılması mümkün hesab olunmalıdır.

**B. Şikayətin mahiyyəti**

**Tərəflərin dəlilləri**

**(a) Ərizəçilər**

**14.** Ərizəçilər iddia edirlər ki, onlara qanunsuz məhkumluğa görə kompensasiya verilməli idi, çünki onlar hər hansı bir məhkəmə tərəfindən təqsirli bilinməmişlər.

**15.** Məhkəmələrin kompensasiya verməkdən imtina etmələrinin əsaslandırmalarına görə isə Ərizəçilər iddia edirlər ki, onlar faktiki olaraq təqsirli hesab olunmuşlar.

**(a) Hökumət**

**16.** Hökumət iddia etmişdir ki, Ərizəçilərin hər hansı bir kompensasiya almaq hüququ yoxdur, çünki onların cinayət işi "bəraətverici" əsaslarla deyil, cəlb etmə müddətinin keçməsinə görə xitam edilmişdir.

**17.** Hökumət qeyd etdi ki, təqsirləndirilən şəxsin "bəraətverici" əsaslar olmadan cinayət işinin icraatına xitam verilməsi barədə qərarından şikayət

vermək və səlahiyyətli orqanlardan onların təqsiri və ya təqsirsizliyi sübuta yetirilənədək prosesin davam etdirilməsini tələb etmək hüquqları vardır. Hökumət qeyd etdi ki, Ərizəçilər bu hüquqlardan istifadə etməmişlər.

**18.** Rostov Vilayəti Taqanroq Şəhər Məhkəməsinin 01 mart 2005-ci il tarixli və Rostov Vilayət Məhkəməsinin 11 may 2005-ci il tarixli qərarlarında müraciət edənlərin "təqsirinə" istinad edilməsinə gəldikdə, Hökumət etiraf etmişdir ki, milli məhkəmələr təqsirsizlik prezumpsiyasının prinsiplərini pozmuşlar.

**Məhkəmənin qiymətləndirməsi**

**19.** Avropa Məhkəməsi, kompensasiya iddialarının iş üzrə icraata xitamın bəraətverici əsaslarla verilmədiyi nəzərə alınaraq rədd edilməsinin təqsirsiz prezumpsiyası prinsipinin pozub-pozmadığını müəyyən etməyi zəruri hesab etmir.

**20.** Məhkəmə xatırladır ki, onun təşəkkül tapmış presendent təcrübəsinə görə məhkəmə qərarı təqsirsizlik prezimpsiyası prinsipini o vaxt poza bilər ki, formal mülahizələr mövcud olmamaqla, məhkəməyə müraciət edənin təqsirli hesab etməsini təsdiq edən dəlillər mövcud olsun (əlavə istinadlarla 29 iyun 2006-cı il tarixli Panteleyenko Ukraynaya qarşı şikayət üzrə №11901/02, §§ 66-70-da müvafiq aspektlərin xülasəsi).

**21.** Hazırkı işdə kompensasiyanın verilməsindən imtina edilməsi barədə məhkəmə qərarları belə məzmunda tərtib olunmuşlar ki, həmin məhkəmələrin qənaətinə görə müraciət edənlərin təqsirləndilikləri əməlləri törətmələri şübhə doğurmur. Belə ki, Rostov Vilayəti Taqanroq Şəhər Məhkəməsi qeyd etmişdir ki, "... müraciət edənlərin cinayətlərin törədilməsində təqsirləri müəyyən olunmuşdur" (yuxarıda 9-cu paraqrafa baxın). Rostov Vilayət Məhkəməsi buna uyğun ifadə istifadə edərkən

həmin qərarı dəyişdirilmədən saxlamışdır: "...onların yuxarıda qeyd edilən cinayətlərin törədilməsində təqsirləri müəyyən edilmişdir" (yuxarıda 10-cu paraqrafa baxın).

**22.** Avropa Məhkəməsinin qənaətinə görə, Taqanroq Şəhər Məhkəməsi və Rostov Vilayət Məhkəməsi tərəfindən istifadə edilən ifadələr özü-özlüyündə təqsirsizlik prezumpsiyasının prinsipinin pozulması nəticəsinə gəlmək üçün kifayət edir.

**23.** Odur ki, Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndi pozulmasına yol verilmişdir.

## III. KONVENSİYANIN 7 SAYLI PROTOKOLUNUN 3-CÜ MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTUSU

**24.** Ərizəçilər onlara qarşı qanunsuz cinayət təqibinə görə kompensasiyanın verilməsindən imtina edilməsindən şikayət etmişlər. Onlar Konvensiyanın aşağıda ifadə edilən 7 saylı protokolunun 3-cü maddəsinə istinad etmişlər.

> " Şəxs yekun hökmlə cinayət əməlinə görə məhkum olunduqda, həmin hökm sonradan yeni və ya yeni açılmış halların məhkəmə səhvinə yol verildiyini əminliklə sübut etməsi əsası ilə ləğv edildikdə, belə məhkumluq nəticəsində cəza çəkən şəxs Dövlətin hüquq və ya təcrübəsinə uyğun olaraq kompensasiya almalıdır (bu şərtlə ki, əvvəllər məlum olunmayan halların onun tam və ya qismən təqsirindən vaxtında müəyyən olunmadığı sübut edilmiş olsun."

**25.** Məhkəmə ilk öncə Konvensiyanın 7 saylı Protokolunun 3-cü maddəsinə əsasən müraciət edənlərin şikayətlərini araşdırmaq üçün onun **“ratione materiae”** səlahiyyəti olub olmadığını müəyyən edir.

**26.** Məhkəmə xatırladır ki, Konvensiyanın 7 saylı Protokolunun 3-cü maddəsinə İzahlı məruzəsi aşağıdakıları nəzərdə tutur:

> “hökm yalnız yeni və ya yeni açılmış halların məhkəmə səhvinin mövcudluğunu sübut etməsi əsası ilə ləğv olunduqda həmin maddə tətbiq olunur...”

**27.** Hazırkı işdə Ərizəçilər ilkin olaraq müxtəlif cinayətlər törədilməsinə görə məhkum olunmuşlar, lakin cəlb etmə müddətinin keçməsinə görə cəza çəkməkdən azad edilmişlər. Rostov Vilayət Məhkəməsinin Rəyasət Heyəti sonradan cəlb etmə müddəti keçdiyindən Ərizəçilərin təqsirli bilinməsi barədə nəticəyə gəlməkdə məhkəmələrin  haqlı olmadıqları əsası ilə hökmü ləğv etmişdir.

**28.** Müvafiq olaraq, Ərizəçilər barədə hökm məhkəmə səhvinin mövcudluğunu əminliklə sübut edən yeni və ya yeni açılmış halların olması əsası ilə deyil, aşağı məhkəmələrin tətbiq edilməli olan cəlb etmə müddətlərini düzgün müəyyən etmədiklərinə görə ləğv edilmişdir (buna uyğun, Matveyev Rusiyaya qarşı, , 03 iyul 2008-ci il tarixli qərarı, №26601/02, §43-ə baxın).

**29.** Yuxarıdakıları nəzərə alaraq Avropa Məhkəməsi hesab edir ki, Konvensiyanın 7 saylı Protokolunun 3-cü maddəsinin tətbiqi şərtlərinə riayət olunmamışdır.

**30.** Beləliklə, şikayət Konvensiyanın müddəalarına, 35-ci maddəsinin 3-cü bəndinin mənası baxımından **(ratione materiae)** uyğun deyildir.

## IV. KONVENSİYANIN 41-Cİ MADDƏSİNİN TƏTBİQ OLUNMASI

**31.** Konvensiyanın 41-ci maddəsi aşağıdakıları təmin edir:

> "Məhkəmə Konvensiyanın və ya onun Protokollarının pozulmasını elan etdikdə, Yüksək Tərəfin daxili qanunvericiliyi bu pozuntunun nəticələrini yalnız qismən aradan qaldırılmasına imkan verdikdə, Məhkəmə zərurət yarandığı hallarda sadəcə zərərçəkən tərəfə ədalətli kompensasiyanın verilməsini qərara alır."

### A. Zərər

**32.** Ərizəçilərin hər biri təqsirsizlik prezumpsiyasının prinsipinin pozulması ilə vurulmuş mənəvi zərərə görə kompensasiya qismində 5.000 AVRO ödənilməsini tələb etmişdir

**33.** Hökumət iddia edilən məbləğin həddindən artıq olduğunu hesab etmişdir.

**34.** Avropa Məhkəməsi mənəvi zərərə görə müraciət edənlərin hər birinə 5.000 AVRO verilməsinə qərar verir.

### B. Xərclər və məsrəflər

**35.** Ərizəçilər buna dair hər hansı bir iddia təqdim etməmişlər, həmin səbəbdən də Avropa Məhkəməsi bununla bağlı hər hansı bir məbləğin onlara ödənilməsi barədə qərar vermir.

### C. Ödəmənin gecikdirilməsinə görə faiz dərəcəsi

**36.** Məhkəmə hesab edir ki, ödəmənin gecikdirməsinə görə faiz dərəcəsi Avropa Mərkəzi Bankının kredit faiz dərəcəsinin yuxarı həddinə 3 faiz əlavə edilməsi hesabı ilə müəyyən edilməlidir.

**YUXARIDAKILARA ƏSASƏN, MƏHKƏMƏ, YEKDİLLİKLƏ:**

1. Ərizəçilərin şikayətlərini Rusiya Federasiyasının məhkəmələrinin qərarlarında onların "təqsirlərinə" istinad edilməsinin təqsirsizlik prezumpsiyası prinsipini pozmasına dair hissədə mahiyyəti üzrə baxılması üçün mümkün sayır, qalan hissəsə isə baxılmasını mümkün hesab etmir;
2. **Qərara alır** ki, Konvensiyanın 6-cı maddəsinin 2-ci bəndinin pozulmuşdur.
3. Qərara alır ki,

   **(a)** cavabdeh Dövlət 03 ay ərzində, mənəvi zərərə görə, ödənilə biləcək hər hansı vergi də daxil olmaqla, 5.000 AVRO-nu (ödəmə tarixinə məzənnə ilə cavabdeh Dövlətin valyutasında) müraciət edənlərin hər birinə ödəməlidir.

   **(b)** yuxarıda qeyd edilən üç aylıq müddətin birməsindən sonra tam hesablaşmaya qədər həmin məbləğə Avropa Mərkəzi Bankının kredit dərəcəsinin üzərinə 3 faiz də əlavə edilərək faiz hesablanmalıdır.

Məhkəmə Reqlamentinin 77§§ 2 və 3-cü Qaydasına əsasən 10 yanvar 2017-ci ildə İngilis dilində verilmiş və yazılı şəkildə bildirilmişdir.

| | |
|---|---|
| **Fatoş Aracı** | **Branko Lubardo** |
| **Qeydiyyatçı Müavini** | **Sədr** |